*"Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir".*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 14 mart 2015-ci il № 20 (1936) | Qiyməti 25 qəpik


# Pakistan Prezidenti Məmnun Hüseynin Azərbaycana rəsmi səfəri

Azərbaycan Respublikasına rəsmi səfərə gələn Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin martın 11-də rəsmi qarşılanma mərasimi olub.

Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri Prezident Məmnun Hüseynə, Pakistan İslam Respublikasının nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

* * *

Martın 11-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin təkbətək görüşü olub.

Görüşdə ölkələrimiz arasında dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq prinsiplərinə söykənən ikitərəfli münasibətlərin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu. Pakistan Prezidenti Məmnun Hüseynin Azərbaycana rəsmi səfərinin əlaqələrimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminlik bildirildi. Ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsi üçün yaxşı potensialın olduğu qeyd edildi.

Söhbət zamanı ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Martın 11-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin geniş tərkibdə görüşü olub.

* * *

Martın 11-də Prezident İlham Əliyevin və Prezident Məmnun Hüseynin geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Pakistan sənədlərinin imzalanması mərasimi olub.

"Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə"ni Prezident İlham Əliyev və Prezident Məmnun Hüseyn imzaladılar.

* * *

Martın 11-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn mətbuata bəyanatlarla çıxış ediblər.

## Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident, əziz dostlar.

Nümayəndə heyətinin üzvləri.

Cənab Prezident, Sizi və nümayəndə heyətinizi bir daha salamlamaq istəyirəm. Azərbaycana xoş gəlmisiniz. Səfərinizə çox böyük əhəmiyyət veririk. Bu səfəriniz ölkələrimiz, həmçinin Azərbaycan və Pakistan xalqları arasındakı qardaşlıq əlaqələrini gücləndirəcək. Əsrlər boyu Azərbaycan və Pakistan xalqları sülh, əməkdaşlıq və dostluq şəraitində yaşamışlar. Əsrlər boyu bir-birimizi dəstəkləmişik, qardaş kimi yaşamışıq. Bu gün iki müstəqil ölkə yeni bir əməkdaşlıq formatını yaradır. Bu əməkdaşlıq tarixi irsimiz, ənənələrimiz, dinimiz və həmçinin strateji maraqlarımıza söykənir.

Bu gün cənab Prezident və mənim aramda imzalanan sənəd ölkələrimiz arasındakı strateji tərəfdaşlıq bəyannaməsidir. Əslində bu sənəd əməkdaşlığımızın demək olar ki, bütün istiqamətlərini əhatə edir və strateji əlaqələrimizin daha da inkişaf etdirilməsində mühüm bir mərhələdir. Biz dostuq, qardaşıq, strateji tərəfdaşıq və əməkdaşlığımızı xalqlarımız, ölkələrimiz, habelə regional təhlükəsizlik və sabitlik naminə davam etdirəcəyik.

Ölkələrimiz arasında siyasi əlaqələr çox yüksək səviyyədədir. Pakistan Prezidentinin Azərbaycana rəsmi səfəri, elə indicə imzalanmış sənədlər bunu aydın şəkildə nümayiş etdirir. Biz bütün beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik və bu işi davam etdirəcəyik.

Bu gün cənab Prezidentlə ikitərəfli və çoxtərəfli əhəmiyyətə malik məsələləri, xüsusilə beynəlxalq təsisatlarda əməkdaşlığımızı müzakirə etdik. Biz bir-birimizi BMT-də, İslam Əməkdaşlıq Təşkilatında və digər beynəlxalq təsisatlarda dəstəkləyirik. Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycana davamlı dəstək göstərdiyi üçün Pakistana çox minnətdarıq.

Bildiyiniz kimi, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış torpaqları 20 ildən çoxdur ki, erməni işğalı altındadır. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparmış və bunun nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ərazimizin 20 faizi indi işğal altındadır. Ermənilər günahsız azərbaycanlı uşaqları, qadınları və yaşlıları yalnız etnik mənsubiyyətinə görə qətlə yetirərək Xocalı soyqırımını törədiblər. Azərbaycan xalqı isə Pakistandakı qardaşlarına çox minnətdardır. Çünki Pakistan dünyada Xocalı soyqırımını rəsmi olaraq soyqırımı kimi tanıyan ilk ölkədir. Artıq 10-dan çox ölkə Xocalı soyqırımını tanıyıb, ancaq birinci ölkə Pakistan oldu.

Biz Pakistana çox minnətdarıq ki, bu ölkə torpaqlarımızın Ermənistan tərəfindən davam edən işğalı səbəbindən Ermənistanla heç bir diplomatik münasibət qurmayan az sayda ölkələrdən biridir. Bu, qardaş münasibətidir. Bu, real dəstək rəmzidir. Hökumətimiz və xalqımız sizin bu mövqeyinizə görə hökumətinizə və xalqınıza çox minnətdardır. BMT Təhlükəsizlik Şurasının qətnamələri Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunan ərazilərindən qeyd-şərtsiz və dərhal çıxmasını tələb edir. Əfsuslar olsun ki, bu qətnamələr icra edilmir.



Azərbaycan öz növbəsində Pakistanı Cəmmu və Kəşmir məsələsində, onun BMT-nin müvafiq sənədlərinə uyğun olaraq, həllini hər zaman dəstəkləyir. Başqa sözlə desək, ölkələrimiz arasında əməkdaşlığın güclü tarixi təməli var və bu gün biz beynəlxalq arenada öz milli mənafelərimizi qorumaq üçün bir-birimizi dəstəkləyirik.

Biz bu gün iqtisadi sahədə əməkdaşlığın perspektivlərini də müzakirə etdik. Şadam ki, cənab Prezident Pakistanın işgüzar dairələrinin təmsilçilərinin böyük qrupu tərəfindən müşayiət olunur. Sabah biz bir yerdə biznes forumda iştirak edəcəyik. Ümid edirik ki, bu biznes forum iqtisadi əməkdaşlıq, biznes dairələri arasında təmaslar, qarşılıqlı sərmayə qoyuluşu və birgə müəssisələr üçün əlavə imkanlar yaradacaq. Bu gün nümayəndə heyətləri ilə görüşdə biz bu məsələni müzakirə etdik. Sabah nümayəndə heyətlərinin üzvləri bu istiqamətdə işləməyə davam edəcək və nəticələr haqqında bizə məruzə edəcəklər.

Biz hərbi sahədə fəal əməkdaşlıq edirik. Bu gün müdafiə sənayesi sahəsində əməkdaşlıq üzrə növbəti planları müzakirə etdik. Pakistan müdafiə sənayesində çox böyük irəliləyişə nail olub. Əlbəttə, biz də Azərbaycanda müdafiə sənayesi qururuq. Müasir texnologiyalara çıxışın əldə edilməsi üçün səylərimizi birləşdirmək, həmçinin tədqiqat, elm və müdafiə texnologiyaları sahəsində birgə fəaliyyət üçün imkanlar əldə etmək istəyirik ki, potensialımızı müasirləşdirə bilək.

Əməkdaşlığımızın mühüm bir hissəsi humanitar sahəyə aiddir. Bu, mədəniyyət, elm, sosial sahələrdir. Bunların hamısı xalqlarımız və ölkələrimiz üçün çox əhəmiyyətlidir. Çünki beynəlxalq arenada qarşılıqlı dəstək, iqtisadi və enerji sektorlarında əməkdaşlıq həqiqətən strateji tərəfdaşlığın səviyyəsinin göstəricisidir. Habelə ölkələrimiz İslam həmrəyliyinin gücləndirilməsinə aid məsələlərdə də çox fəaldır. İslam dünyasında daha çox birliyə, qarşılıqlı dəstəyə ehtiyacımız var. Bir-birimizi siyasi və iqtisadi cəhətdən, həmçinin beynəlxalq təşkilatlardakı fəaliyyətlərimiz baxımından dəstəkləməliyik.

Biz İslam həmrəyliyinin gücləndirilməsinə böyük töhfə veririk. Azərbaycan və Pakistan bu istiqamətdə öz mühüm rolunu oynamağa davam edəcək. Başqa sözlə desək, biz bütün sahələrdə əməkdaşlıq edirik. Bu əməkdaşlığı gücləndirmək üçün aydın niyyətimiz var. Bizim üçün Pakistan ən yaxın dost və müttəfiqlərdən biridir. Bu gün qardaş ölkənin Prezidentini Azərbaycanda qəbul etməkdən çox məmnunuq. Ümid edirəm ki, səfərinizin çox yaxşı nəticələri və səfərlə bağlı xoş xatirələriniz olacaq. Cənab Prezident, bir daha Azərbaycana xoş gəlmisiniz.

## Prezident Məmnun Hüseynin bəyanatı

- Sağ olun, cənab Prezident.

Zati-aliləri, qardaşım İlham Əliyev.

Hörmətli nazirlər, mətbuat nümayəndələri, xanımlar və cənablar.

Qardaşım Prezident İlham Əliyevin dəvəti ilə bu gün burada olmaqdan çox məmnunam. Biz mövcud mükəmməl ikitərəfli münasibətlərimizi müzakirə etdik və onların səviyyəsindən məmnunluğumuzu bildirdik. Səmimi əlaqələrimizin bundan sonra da davam etdirilməsi ilə bağlı tədbirlərə dair razılığa gəldik. Biz, həmçinin, qarşılıqlı maraq kəsb edən bir sıra regional və beynəlxalq məsələlərlə bağlı çox faydalı və səmərəli fikir mübadiləsi apardıq.

Azərbaycan ilə Pakistan arasında ikitərəfli münasibətlər ortaq tarixə əsaslanır. Cənab Prezidentin qeyd etdiyi kimi, bu münasibətlər ortaq tarixə, dinə, mədəniyyətə, ənənələrə söykənir. Bizim xalqlarımız bir-birinə dərin rəğbət və etibar bəsləyir. Eyni zamanda, bir sıra regional və beynəlxalq məsələlərdə birgə baxışlarımız var. Biz regionlarımızın daha təhlükəsiz və əmin-amanlıq şəraitində olmasına töhfəmizi veririk. Biz ikitərəfli münasibətlərimizin bütün sahələrini nəzərdən keçirdik. Biz mükəmməl siyasi əlaqələrimizin iqtisadiyyat, sərmayə, ticarət, kommersiya, təhsil, müdafiə sənayesi, elm, texnologiya və mədəniyyət sahələrində nəzərəçarpacaq dərəcədə əməkdaşlığa çevrilməsinə olan sadiqliyimizi yenidən ifadə etdik. Biz ikitərəfli qarşılıqlı ticarət və sərmayə əməkdaşlığına təkan verilməsi ilə bağlı razılığa gəldik.

Cənab Prezident, Sizin atanız və Azərbaycan xalqının ulu öndəri, mərhum Prezident Heydər Əliyevin Azərbaycanın inkişafına verdiyi töhfə və ölkələrimiz arasında əlaqələrin təşviqi baxımından baxışları Pakistan xalqını dərindən valeh etmişdi. Qardaşım Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hökumətinin siyasəti dahi atasının baxışlarının həyata keçirilməsinin bariz nümunəsidir. Sizin müdrik rəhbərliyiniz ilə Azərbaycan beynəlxalq arenada layiqli yerini tutub. Son 10 ildə Azərbaycanın əldə etdiyi misli görünməmiş tərəqqi dünyada inkişafda olan bir çox ölkələr üçün nümunə ola bilər. Biz Pakistanda Azərbaycanın inkişaf və tərəqqisini öz inkişafımız və tərəqqimiz kimi qəbul edirik.

Xanımlar və cənablar, bu gün imzalanmış birgə bəyannamə və digər sənədlər müxtəlif sahələrdə ikitərəfli əməkdaşlığımızı gücləndirəcək. Mən Dağlıq Qarabağdakı hazırkı vəziyyət və münaqişənin nizamlanması istiqamətində Azərbaycanın səyləri ilə bağlı məlumat aldım. Biz bu məsələnin beynəlxalq hüquq çərçivəsində sülh yolu ilə tezliklə həll edilməsini dəstəkləyirik. Biz, həmçinin Pakistan-Hindistan münasibətlərinə dair fikir mübadiləsi apardıq. Mən Hindistan ilə mehriban qonşuluq münasibətlərinin yaradılmasında səylərimizi və bütün mübahisələrin, o cümlədən mühüm əhəmiyyət kəsb edən Cəmmu və Kəşmir məsələsinin sülh şəraitində həll edilməsinə sadiqliyimizi vurğuladım. Biz bu məsələdə Azərbaycanın dəstəyinə böyük dəyər veririk.

Mən, həmçinin, qardaşım İlham Əliyevlə başladığımız Pakistan-Əfqanıstan əlaqələrinin yeni tarixi mərhələsi və siyasət, təhlükəsizlik, terrorizmlə mübarizə, ticarət və iqtisadiyyat məsələlərində çoxşaxəli dialoqun intensivləşdirilməsi ilə bağlı fikirlərimi bölüşdüm. Biz BMT Təhlükəsizlik Şurasında islahatlarla bağlı beynəlxalq forumlar çərçivəsində Azərbaycanla çox sıx işləyirik. Biz bu qənaətdəyik ki, islahat müfəssəl və konsensusa əsaslanmış olmalıdır. BMT-yə üzvlük yalnız dar milli maraqlarla məhdudlaşmamalıdır.

Xanımlar və cənablar, Azərbaycan ilə Pakistan arasında ikitərəfli münasibətlər gündən-günə güclənməkdə davam edəcək. Bizim ikitərəfli əməkdaşlığımızın inkişafı ilə bağlı birgə səylərimiz, beynəlxalq və regional səviyyədə sülh və inkişafa töhfəmiz gələcək illərdə daha da dinamik olacaq.

Mən qardaş Azərbaycanın inkişafı üçün dua edirəm. Yaşasın Pakistan-Azərbaycan dostluğu. Yaşasın Pakistan-Azərbaycan qardaşlığı. Sağ olun.

* * *

Martın 11-də mətbuata bəyanatlardan sonra Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn tərəfindən Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya Pakistanın ali dövlət mükafatı - "Hilal-e-Pakistan" ordeninin təqdim edilməsi mərasimi olub.

Əvvəlcə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın "Hilal-e-Pakistan" ordeni ilə təltif edilməsi barədə müvafiq qərar oxundu.

Qərarda deyilir: "Azərbaycanın birinci xanımı Mehriban Əliyeva 2004-cü ildə Heydər Əliyev Fondunun prezidenti təyin edilmişdir. Fond təhsil, səhiyyə, mədəniyyət, idman, ətraf mühit və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək Azərbaycanın sosial-iqtisadi inkişafına töhfələr verir. Fondun fəaliyyəti tədricən dost ölkələri, o cümlədən Pakistanı da əhatə etməyə başladı. 2005-ci ilin oktyabrında Pakistanda zəlzələ baş verdikdən sonra Fond 2007-ci ildə Müzəffərabadın Rara qəsəbəsində zəlzələ nəticəsində dağılmış qızlar məktəbinin tikintisi kimi müxtəlif humanitar layihələrdə fəal iştirak etmişdir. 2011-ci ildə daşqınlar nəticəsində zərər çəkmiş məktəb 2012-ci ildə tam şəkildə yenidən qurulmuş, təmir və təchiz edilmiş, davamiyyəti ilə seçilmiş tələbələrə isə təqaüdlər verilmişdir. 2012-ci ildə hepatit B peyvəndi İslamabadda Edhi və KPK kimsəsiz evlərinə çatdırılmış, 40 min nəfərə yaxın şəxsə həmin peyvənd vurulmuşdur. Fond, həmçinin qanköçürmə məqsədilə Həmzə Fonduna tam təchiz edilmiş təcili tibbi yardım maşınını və 2000 qan paketini çatdırmış, Peşəvərdə Xayber Göz Fondunun klinikasının yeni blokunun tikintisinə maliyyə yardımı ayırmışdır. 2013-cü ildə isə Fond Azərbaycanın 12 nüfuzlu universitetində pakistanlı tələbələr üçün sosial elmlər üzrə universitetlərarası konsorsiuma 36 təqaüd ayırmışdır.

Pakistanda göstərdiyi xidmətlərə, eləcə də verdiyi böyük töhfəyə görə Pakistan İslam Respublikasının Prezidenti Mehriban xanım Əliyevanın "Hilal-e-Pakistan" ordeni ilə təltif etməkdən məmnundur".

Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya Pakistanın ali dövlət mükafatı - "Hilal-e-Pakistan" ordenini təqdim etdi.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva çıxış edərək dedi:

- Cənab Prezident, birinci xanım, əziz dostlar. Pakistan İslam Respublikasının ali dövlət mükafatı - "Hilal-e-Pakistan" ordeni ilə məni təltif etdiyinizə görə, cənab Prezident, Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Azərbaycan ilə Pakistanı tarixi və mədəni köklərə əsaslanan möhkəm dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq münasibətləri birləşdirir. Ölkələrimiz bir çox sahələrdə əməkdaşlıq edir və əminəm ki, Azərbaycana etdiyiniz səfər bu əlaqələrimizin gələcək inkişafında mühüm rol oynayacaq.

Çox şadam ki, Heydər Əliyev Fondu xalqlarımızın iradəsini ifadə edən dostluq münasibətlərimizin, ölkələrimiz arasındakı mövcud humanitar əlaqələrin daha da genişləndirilməsi istiqamətində ardıcıl səylər göstərir. Bir sıra mühüm layihələr və xeyriyyə proqramları Pakistanın müxtəlif yerlərində icra olunur. Çox fərəhlənirik ki, birinci layihəmiz - Müzəffərabadda 2005-ci ilin oktyabrında güclü zəlzələ nəticəsində dağılmış qızlar məktəbinin tikintisi çox uğurlu olmuş və gələcək əməkdaşlığımız üçün yaxşı əsas yaratmışdır.

Fond təhsil, səhiyyə və sosial sahələrdə layihələr həyata keçirir. Pakistanın müxtəlif yerlərində bütün layihələrin icrası zamanı biz yerli əhalidən güclü dəstək aldıq və beləliklə, ikitərəfli münasibətlərimizin ayrılmaz hissəsi olan insanlar arasında təmasların geniş formatını qurduq.

Heydər Əliyev Fondunun prezidenti olaraq fərəhlənirəm ki, Fondumuz ölkələrimiz arasında qardaşlıq münasibətlərinin gücləndirilməsinə töhfə verir. Ümidvaram ki, hər iki Prezidentin dəstəyi ilə Pakistandakı fəaliyyətimiz davam edəcək.

Bu fürsətdən istifadə edərək ölkənizin xalqına böyük hörmətimi ifadə etmək istəyirəm. Bütün bu illər ərzində ölkənizdə çoxlu sayda yaxşı dost qazanmışıq. Cənab Prezident, fəaliyyətimizə verdiyiniz bu cür yüksək qiymətə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm.

Əziz dostlar, bir daha Azərbaycana xoş gəlmisiniz, sizə böyük uğurlar arzulayıram. Çox sağ olun.

* * *

Martın 12-də Bakıda Azərbaycan-Pakistan biznes forumu işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn biznes forumda iştirak ediblər.

Dövlət başçıları forumda çıxış ediblər.

**AzərTAc-ın materialları əsasında**

# Azərbaycan Respublikası Müdafiə nazirinin Xorvatiyaya rəsmi səfəri





Martın 11-də Müdafiə naziri general-polkovnik Zakir Həsənovu Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç qəbul edib.

Görüşdə hər iki ölkə arasında əlaqələrin bütün istiqamətlər üzrə müvəffəqiyyətlə inkişaf etdiyi vurğulanaraq, səfərin uğurla keçdiyi və görüşlərin hərbi sahədə əməkdaşlığa mühüm töhfə verəcəyinə, o cümlədən əlaqələrin daha da genişlənəcəyinə ümidvar olunduğu bildirilib.

Təhlükəsizlik və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Xorvatiyanın Müdafiə Nazirliyində general-polkovnik Zakir Həsənovun Xorvatiya Respublikasının Müdafiə naziri cənab Ante Kotromanoviç tərəfindən qarşılanma mərasimi keçirilib.

Protokola uyğun olaraq Müdafiə nazirləri fəxri qarovulun önündən keçiblər. Hər iki ölkənin Dövlət himni səsləndikdən sonra nazirlərin görüşü keçirilib.

Görüşdə hərbi, hərbi texniki, hərbi təhsil sahələrində və ikitərəfli əməkdaşlığın perspektiv istiqamətlərinin müəyyənləşdirilməsi məsələləri müzakirə edilib.

* * *

Xorvatiya Respublikasında rəsmi səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov bir sıra görüşlər keçirib.

Xorvatiyanın Xarici İşlər nazirinin birinci müavini cənab Yoşko Klisoviçlə keçirilən görüşdə hər iki ölkənin yerləşdiyi coğrafi regionlardakı təhlükəsizlik və qarşılıqlı münasibətlərin daha da genişləndirilməsi məsələləri müzakirə edilib.

General-polkovnik Zakir Həsənov Ermənistanın Cənubi Qafqaz bölgəsindəki sabitliyə əsas təhlükə yaratdığını, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü prinsipinə əsaslanaraq həll olunmasını diqqətə çatdırıb.

Xorvatiyanın İqtisadiyyat Palatasında olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov Palatanın sədri cənab Luka Buriloviçlə görüşüb. Tərəflər ölkələrimiz arasındakı dostluq münasibətlərindən danışıb, əlaqələrin daha da genişləndirilməsi, o cümlədən müdafiə sənayesi sahəsində əməkdaşlığın dərinləşdirilməsi perspektivlərini müzakirə ediblər.

Sonra Müdafiə nazirinə Xorvatiyanın müdafiə sənayesinə daxil olan şirkətlər haqqında geniş prezentasiyalar təqdim olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan Respublikası Müdafiə nazirinin Sloveniya Respublikasına rəsmi səfəri

Martın 13-də Sloveniya Respublikasının Prezidenti cənab Borut Pahor Müdafiə naziri general-polkovnik Zakir Həsənovu qəbul edib.

Görüşdə ölkələrimiz arasında münasibətlərin müvəffəqiyyətlə inkişaf etdiyi vurğulanaraq, səfərin uğurla keçdiyi, hərbi və müdafiə sahəsində əməkdaşlığa mühüm töhfə verəcəyi, o cümlədən əlaqələrin daha da genişlənəcəyinə ümidvar olunduğu bildirilib.

Tərəflər Silahlı Qüvvələrin bölmələrinin beynəlxalq əməliyyatlarda və missiyalarda iştirakına önəm verərək, hərbi qulluqçuların dil kurslarında və digər treninqlərdə hazırlığının əhəmiyyətini qeyd ediblər.



Görüşdə təhlükəsizlik və digər regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Sloveniya Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov bu ölkənin Müdafiə naziri cənab Yanko Veber ilə görüşüb.

Rəsmi qarşılanma mərasimində protokola uyğun olaraq Müdafiə nazirləri fəxri qarovulun önündən keçiblər. Hər iki ölkənin Dövlət himni səsləndirildikdən sonra nazirlərin təkbətək görüşü keçirilib.



Nümayəndə heyətlərinin geniş tərkibdə baş tutan görüşündə iki ölkə arasında hərbi əməkdaşlığın perspektivləri müzakirə edilib.

Danışıqlar bitdikdən sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənov Şərəf kitabını imzalayıb.

Sonra kütləvi informasiya vasitələri nümayəndələri üçün brifinq keçirilib və Müdafiə nazirləri görüşün yekunları barədə medianı məlumatlandırıblar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Müdafiə Nazirliyində Avropa Şurası Parlament Assambleyasının nümayəndəsi ilə görüş




Martın 12-də Avropa Şurasının Parlament Assambleyasının Siyasi Əlaqələr Komitəsinin Dağlıq Qarabağ üzrə məruzəçisi cənab Robert Uolterin başçılıq etdiyi nümayəndə heyəti Müdafiə Nazirliyində olub.

Müdafiə nazirinin şəxsi heyət üzrə müavini general-leytenant Kərim Vəliyev münaqişə bölgəsində gərginliyin artması ilə bağlı hesabat hazırlamaq məqsədilə Azərbaycanda iki günlük səfərdə olan qonağa regiondakı hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı geniş məlumat verib və onu maraqlandıran bir sıra sualları ətraflı cavablandırıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "Məqsəd şəxsi heyətin döyüş vərdişlərinin təkmilləşdirilməsidir"

## Mühəndis-istehkam bölmələri ilə taktiki məşğələlər keçirilib

***Martın 12-də mühəndis-istehkamçıların təlim mərkəzində mühəndis bölmələri ilə taktiki məşğələlər keçirilib. Məşğələlərdə yüksək rütbəli zabitlər iştirak ediblər.***

- Məşğələlər 3 əsas istiqamətdə həyata keçiriləcək, - deyə polkovnik-leytenant İlqar Nəciyev təlim-məşğələlərin planı və məqsədi haqqında iştirakçılara geniş məlumat verərək bildirib ki, bu məşğələlərin keçirilməsində əsas məqsəd müharibə zamanı mühəndis-istehkam təminatı ilə bağlı tapşırıqların yerinə yetirilməsi üçün bölmələrin bacarıqlarının təkmilləşdirilməsi və bu sahədə şəxsi heyətin bilik və bacarıqlarını artırmaqdır.



İlkin mərhələdə qarşıya çıxan su maneəsini dəf etməyin yolları nümayiş etdirildi. Su maneələrinin körpü salmaqla aradan qaldırılması praktik olaraq göstərildi. Panton-körpünü açmaq üçün əvvəlcə su hövzəsində katerlərlə kəşfiyyat aparılaraq maneənin uzunluğu, eni və dərinliyi müəyyən edildikdən sonra doqquz çay və iki sahil dəsti vasitəsi ilə panton-körpü salındı. Salınmış körpü üzərindən texnikalar qarşı tərəfə keçirildi.

Təlim-məşğələlərin ikinci mərhələsində cəmləşmə rayonunda silahlanmaya yeni qəbul olunan texnikalar nümayiş etdirildi. Təlim iştirakçılarına bu texnikaların taktiki-texniki xüsusiyyətləri haqqında ətraflı məlumat verildi.

Üçüncü mərhələdə isə maneəqurma, maneələğvetmə və mühəndis-yol bölmələrinə verilən digər tapşırıqlar yerinə yetirildi.

Təlim-məşğələlərdə fərqlənən hərbi qulluqçulara fəxri fərman və qiymətli hədiyyələr verildi.

**Leytenant Ceyhun CƏFƏRLİ, "Azərbaycan Ordusu"**






# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Martın 11-i axşam saatlarında düşmənin kəşfiyyat-təxribat qrupu Silahlı Qüvvələrimizin bölmələrinin mövqelərinə basqın etməyə cəhd göstərib. Şəxsi heyətin sayıqlığı nəticəsində düşmənin mövqelərimizə yaxınlaşması əvvəlcədən aşkar olunub. Şiddətli atışmada erməni tərəfi itkilər verərək geri çəkilməyə məcbur edilib.

Təəssüflər olsun ki, düşmənlə döyüşdə Silahlı Qüvvələrimizin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Atayev Anar Mamed oğlu şəhid olub.

Martın 13-də erməni silahlı bölmələri atəşkəs rejimini pozaraq mövqelərimizi atəşə tutublar.

Nəticədə Silahlı Qüvvələrimizin hərbi qulluqçusu Quliyev Orxan Vaqif oğlu düşmən tərəfindən açılan atəşdən şəhid olub.

Müdafiə Nazirliyi bildirir ki, cəbhə xəttində əməliyyat şəraiti Azərbaycan Silahlı Qüvvələrinin tam nəzarəti altındadır. Şəhid olmuş hərbi qulluqçularımızın qanı yerdə qalmayacaq və düşmənə vurulacaq zərbə daha da sarsıdıcı olacaqdır.

Müdafiə Nazirliyinin rəhbərliyi hər iki şəhidin valideynlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və səbr diləyir.

* * *

***13 mart 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 65 dəfə pozub.

Ermənistan Respublikasının Berd rayonunun Çinari, Mosesqex kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Ağdam və Muncuqlu kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Silahlı Qüvvələrimizin mövqeləri Goranboy rayonunun Tapqaraqoyunlu, Tərtər rayonunun Çaylı, Çiləbürt, Göyarx, Ağdam rayonunun Şuraabad, Cəvahirli, Novruzlu, Kəngərli, Sarıcalı, Şıxlar, Qaraqaşlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Aşağı Veysəlli, Aşağı Seyidəhmədli, Qorqan, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazilərindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

*Döyüş hazırlığı*

# "Hava sərhədlərimizin qorunması üçün məsuliyyət daşıyırıq"

***Ordumuzda keçirilən ötən genişmiqyaslı təlimlər bütün qoşun növlərində olduğu kimi, hərbi hava qüvvələrinin hava hücumundan müdafiə bölmələrində də döyüş hazırlığının yetərli səviyyədə olduğunu sübuta yetirdi. Ermənistan silahlı birləşmələri tərəfindən gözlənilə bilən istənilən təxribatların qarşısının qətiyyətlə alınması bir daha göstərir ki, Silahlı Qüvvələrimizin müxtəlif qoşun bölmələri güclü döyüş qabiliyyətinə malikdir.***

Əlbəttə, dəfələrlə qeyd etdiyimiz kimi, hərbi qulluqçuların döyüş ruhunun yüksəlməsində xüsusi əhəmiyyət kəsb edən amillərdən birincisi dövlətin və ordu rəhbərliyinin öz hərbçisinə, öz əsgərinə göstərdiyi diqqət və qayğıdır. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin əsgərlərimizə dəyər verməsi, onlarla birgə çay süfrəsinə əyləşməsi və problemlərlə yerindəcə maraqlanması artıq ordu rəhbərliyində də dəyərli bir ənənənin yaranmasına səbəb olub. Bu gün istər Müdafiə naziri, istər Baş Qərargah rəisi, həmçinin nazirliyin mühüm qurumlarının rəhbər heyəti müntəzəm surətdə ön xəttə səfər edir və döyüş növbətçiliyini həyata keçirən şəxsi heyətlə sıx təmasda olur. Bu ənənə nəinki ordunun şəxsi heyəti tərəfindən, həm də cəmiyyətimizdə hörmətlə qarşılanır. Əslində bu, ordu rəhbərliyinin əsgər amilinə böyük önəm verməsinin nəticəsidir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun komandir və zabit heyətinə əsas tövsiyəsi ondan ibarətdir ki, gecə-gündüz sinəsini düşmən gülləsinə sipər edib Vətənimizi göz bəbəyi kimi qoruyan döyüşçülərin hər biri yüksək hörmət və ehtirama layiqdir, buna görə də əsgərə diqqət ordunun komandir heyətinin əsas prioritetidir.



Bu dəfə ezamiyyət səferim cəbhə bölgəsində hava sərhədlərimizin qorunması kimi mühüm bir vəzifəni yerinə yetirən "N" hərbi hissəsinə oldu. Komandirin strateji mövqedə yerləşən döyüş bölmələrindən birində olduğunu öyrəndik və vaxt itirmədən həmin istiqamətə yola düşdük. Ölkəmizin qərb istiqamətində hava sərhədlərini düşmənin hərbi təcavüzündən qoruyan hava hücumundan müdafiə bölməsi burada yerləşir.

Polkovnik-leytenant Müşviq Quliyev gəlişimizin məqsədini bilən kimi bizi yetərli döyüş təcrübəsinə malik olan bir zabitlə tanış etdi və onun avtomatlaşdırılmış komanda məntəqəsinin rəisi olduğunu bildirdi. "UAZ"-a əyləşib döyüş növbətçiliyindən yazı hazırlamaq üçün yüksəklikdə yerləşən bir mövqeyə yola düşürük. Yolboyu yeni müsahibimizlə yaxından tanış olmaq fürsəti əldə edirik. Məlum olur ki, ilk ordu quruculuğu dövründən zabit kimi hərbi xidmətə başlamış polkovnik-leytenant Əfqan Cəfərov Azərbaycanın hava hücumundan müdafiə qüvvələrinin formalaşmasına az əmək sərf etməyib. 2005-ci ildə Silahlı Qüvvələrin Hərbi Akademiyasının məzunu olmuş təcrübəli zabitin bioqrafiyasını ordusuz təsəvvür etmək mümkün deyil. Doğru deyiblər ki, həyatda hər kəsi istiqamətləndirən, taleyinə hakim kəsilən bir meyar var. Əslində maraqlı həmsöhbətimizə çevrilən bu dəyərli hərbçimizin də həyat idealına çevrilən əsas amil Vətənin müdafiəsində bir zabit, bəlkə də sadə bir əsgər kimi xidmət etməkdir.



Həmişə geniş təcrübəyə malik olan zabitlərimizlə görüşəndə, ötən dövrlə müqayisədə ordumuzun hazırkı vəziyyətini müqayisəli şəkildə onların dilindən öyrənməyə çalışırıq. Əfqanla söhbətimizdə də marağımız üstün gəldi.

- Əlbəttə, Azərbaycan Ordusunun bugünkü inkişafını 10-15 il bundan əvvəlki vəziyyətlə müqayisə edəndə, sözün həqiqi mənasında, böyük fərqi hiss edirəm, - dedi polkovnik-leytenant. - Mən deyərdim ki, belə bir sürətli inkişafı dünyanın heç bir ordusunda müşahidə etmək mümkün deyil. Bu gün doğma ordumuzun adı dünyanın qabaqcıl orduları ilə bir sırada çəkilir. Silahlı Qüvvələrimizin az bir vaxtda böyük uğurlara imza atması həm bir vətəndaş, həm də bu ordunun yükünü çiyinlərində daşıyan bir zabit olaraq məndə hədsiz qürur doğurur.

Budur, avtomatlaşdırılmış komanda məntəqəsindəyik. Burada vahid bir kollektiv halında birləşən döyüş heyəti verilən tapşırıqları icra etməklə məşğuldur. İlkin olaraq nəzərimiz müqəddəs dövlət rəmzlərinin həkk olunduğu əraziyə dikilir. Bayrağımızın dalğalandığı, gerbimizin və Dövlət himnimizin mətninin səliqəli formada əks olunduğu bu ərazidə hər gün döyüş növbətçiliyinə qəbul edilən hərbi qulluqçuların təlimatlandırılması həyata keçirilir.

- Biz burada Vətənimizin hava sərhədlərinin qorunması üçün məsuliyyət daşıyırıq, - deyən təcrübəli zabitin sözlərinə görə, hərbi qulluqçuların döyüş növbəsinə təlimatlandırılması zamanı hər kəsin sağlamlığından tutmuş mənəvi-psixoloji hazırlığına qədər bütün şərtlərə ciddi əməl edilir. Hər bir döyüş növbətçiliyi hava məkanımızın qorunması baxımından sınaq olduğu üçün şəxsi heyətin hərtərəfli hazırlığı diqqət mərkəzindədir. "Vaxtaşırı keçirilən təlimlər döyüş vərdişlərinin artırılmasına təkan verir, buna görə də mərhələli təlim və çöl-səhra məşğələlərində fəal iştirak edirik".

Komanda məntəqəsinin rəisi qeyd etdi ki, əvvəlki illərlə müqayisədə hazırda müasir texnika və qurğulardan geniş istifadə edilir. Bu isə qarşıda dayanan döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsinə təminatdır.

Bir günlük döyüş növbətçiliyini həyata keçirən heyət üzvlərindən kapitan Elnur Əmirəliyev, leytenantlar Nihad Abdullayev, Ramil Gülmalıyev, gizir Elnur Kərimov və əsgər Fərid Dadaşzadə ilə söhbətlərimizdən yəqin etdik ki, şəxsi heyətin əzm və iradəsi ölkəmizin hava sərhədlərinin etibarlı şəkildə qorunmasını təsdiq edir.

Beləliklə, suveren Azərbaycanın hava hücumundan müdafiə qoşunları daim döyüşə hazır vəziyyətdə olaraq Vətənimizin hava sərhədlərinin mühafizəsi üzrə nümunəvi döyüş növbətçiliyi aparır. Himnimizin ürəkləri coşduran sədaları altında hər gün döyüş heyətləri başları üzərində ucalan Dövlət bayrağımıza hörmətlə döyüş növbətçiliyinə daxil olurlar...

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**Mübariz MUSAOĞLU,**
**"Azərbaycan Ordusu"**




***Müasir dövr texnologiyalar əsridir, texniki tərəqqi xalqları bir-birinə yaxınlaşdırmağa, sıx birləşdirməyə xidmət edir. Elmi ixtiralar, kəşflər və təcrübələr bəşər övladını inkişafa doğru aparan amillərdir. Əslində insanlar bir-birindən öyrənməyə maraq göstərməli, təcrübələrini artırmağa fikir verməlidirlər.***

*Qabaqcıl təcrübə*

# "Rabitə hava, su kimi vacibdir"

Cəbhə xəttində yerləşən motoatıcı taborun qərargah rəisinin rabitə üzrə köməkçisi, rabitə taqımının komandiri baş leytenant Bəhruz Zeynalov kimi. B.Zeynalov 1982-ci ildə Salyanda anadan olub. 2000-2004-cü illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində oxuduğu illərdə həyatda ən böyük arzusu olan rabitəçi ixtisasına yiyələnib. Təhsil illərində qazandığı nəzəri bilikləri xidmətində tətbiq edib. Baş leytenant B.Zeynalov 10 ildən artıqdır ki, Silahlı Qüvvələrimizin rabitə sistemində öz təcrübəsini şəxsi heyətə həvəslə öyrədir. Özünün dediyi kimi, öyrətmək üçün gecəsini-gündüzünə qatıb öyrənib bu sənəti.

- Rabitə sahəsində hər gün, hər saat yenilik var, - deyir zabit. - Müasir dünyamızı rabitəsiz təsəvvür etmək olmaz. Rabitə hava, su kimi vacibdir. Rabitə xidmətinin sirlərini təcrübədə öyrənmişəm. Dayanıqlı, keyfiyyətli, etibarlı rabitə döyüş aparan bölmələrin qələbəsini təmin edir. Bölmələr arasında fasiləsiz əlaqələrin qurulması rabitənin üzərinə düşür. Peşəkar rabitəçi ərazinin relyefini hərtərəfli öyrənməlidir.

Baş leytenant B.Zeynalov qazandığı qabaqcıl təcrübəsini tabeliyindəki şəxsi heyətə həvəslə, məsuliyyətlə çatdırır. Xidmətində göstərdiyi uğurlu nəticələrə görə, dəfələrlə hərbi hissə komandanlığı tərəfindən fəxri fərmana, təşəkkürlərə layiq görülüb. Həmçinin, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90, 95 illik yubiley və "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalları ilə mükafatlandırılıb.

Əsgərlərdən Qulu Quliyev, Cəlal Həmzəyev, Elnur Musabəyli və başqaları komandirlərinin onlara öyrətdiyi rabitənin sirlərini öz xidmətlərində tətbiq edirlər. Hərbi hissədə rabitə xidmətinin yüksək səviyyədə qurulmasında belə hazırlıqlı əsgərlərin də rolu böyükdür.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Suallar:**

**1. Ermənilərin Azərbaycana qarşı ərazi iddialarının və təcavüzünün formalaşması tarixi.**

**2. XX əsrin axırlarında erməni separatçılığı. Ermənistan-Azərbaycan münaqişəsinin yaranma tarixi.**

**Mövzu: Beynəlxalq terrorizmdə erməni terrorizminin yeri. Ermənistanın Azərbaycana qarşı təcavüzü.**

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən Azərbaycanın tarixinə dair nəşr olunmuş vəsaitlərdən, dövri mətbuatda çap olunmuş materiallardan istifadə etməli və öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə alaraq, mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.*

### *Ermənilərin Azərbaycana qarşı ərazi iddialarının və təcavüzünün formalaşması tarixi*

Son iki (XIX-XX) əsrdə Azərbaycan ərazisində xalqımızın rastlaşdığı ağır sınaqlarda, faciəli tarixi hadisələrdə bu və ya digər dərəcədə erməni izi vardır. Erməni siyasətçiləri tərəfindən istiqamətləndirilən erməni xalqı qonşu torpaqlarına sahib çıxmaq üçün yaranan hər bir fürsətdən əlverişli istifadə etməyə çalışır. Elə bunun nəticəsidir ki, bölgədə mürəkkəb tarixi şərait yaranan kimi, ondan ifrat dərəcədə bəhrələnməyə çalışan ermənilər, içərisində və ərazisində yaşadıqları Azərbaycan xalqının hesabına bu gün artıq öz dövlətçiliklərinə də malikdirlər. Uzun illər boyu Azərbaycan xanlıqlarının ərazilərinə cəmləşdirilərək son nəhayətdə öz dövlətlərini yaradan ermənilər daha böyük iddialarla yaşayırlar.

Eramızın 327-ci ilinə kimi Kiçik Asiyada xırda dövlət olan Ermənistan sonralar İran dövləti və Bizans imperiyası arasında bölüşdürülmüşdür. Həmin vaxtdan İranın tərkibində olan erməni çarlığı 428-ci ildə tamamilə ləğv edilmiş, ermənilər isə bütün dünyaya səpələnmişlər. Bu zamandan 1918-ci ilin mayına qədər erməni dövləti, erməni milli dövlətçiliyi olmamışdır.

1917-ci ildə Rusiyada bolşeviklər hakimiyyətə gəldikdən sonra mərkəzi Tiflis şəhəri olmaqla Azərbaycan, Gürcüstan və Ermənistanın ərazilərini birləşdirən Zaqafqaziya seymi yaradıldı. Seymə Azərbaycan və Gürcüstanın nümayəndələri ilə birlikdə ermənilər də daxil idilər. Ancaq hadisələrin sonrakı inkişafı nəticəsində 1918-ci il mayın 27-də Gürcüstan, 28-də isə Azərbaycan Zaqafqaziya seymindən çıxaraq müstəqil dövlət qurduqlarını elan etdilər. Bundan sonra ermənilərin ən çox məskunlaşdıqları keçmiş İrəvan xanlığının ərazisində mərkəzi İrəvan şəhəri olmaqla Ermənistan Respublikası yaradıldı.

**Ermənilərin Qərbi Azərbaycanda və Qarabağda məskunlaşması tarixinə nəzər salaq.**

Səfəvilər dövründə Azərbaycan inzibati-ərazi quruluşuna görə bəylərbəyliklərə bölünmüşdü. İndiki Ermənistanın ərazisi, Naxçıvan da daxil olmaqla Çuxur Sədd bəylərbəyliyi adlanırdı. XVIII əsrdə Azərbaycanda olan fransız səyyahı Jan Şarden Çuxur Sədd bəylərbəyliyinin mərkəzi İrəvan qalasının səkkiz yüz evdən ibarət olduğunu və burada ancaq təmiz qanlı səfəvilərin (yəni azərbaycanlıların) yaşadığını yazırdı.

1736-cı ildə Nadir şah Azərbaycanda mövcud olmuş inzibati-ərazi quruluşunu - bəylərbəylikləri (Qarabağ, Şirvan, Təbriz və Çuxur Sədd) ləğv etdi və həmin ərazilərdən ibarət mərkəzi Təbriz şəhəri olmaqla Azərbaycan vilayəti yaratdı.

1747-ci ildə Nadir şah öldürüldükdən sonra Azərbaycanın ərazisində müstəqil xanlıqlar, o cümlədən İrəvan xanlığı yarandı.

Rusiya qoşunları 1827-ci ildə Azərbaycanın paytaxtı Təbriz şəhərini işğal etdi. 1828-ci il Türkmənçay müqaviləsinə əsasən rus qoşunları Cənubi Azərbaycanı tərk etməli oldu. Çar Rusiyası öz əsarəti altına aldığı Şimali Azərbaycanda möhkəmlənmək üçün İranda yaşayan ermənilərin İrəvana və Qarabağa köçürülməsi prosesini təşkil etdi. Rus qoşunlarının komandanı general Paskeviçin Təbrizin milliyyətcə erməni olan komendantı polkovnik Lazarevə göndərdiyi direktivin 13-cü bəndində deyilirdi: "Ümumiyyətlə, xristianları (erməniləri) razı salmaq lazımdır ki, onlar Naxçıvan və İrəvan vilayətlərinə getsinlər. Xristian əhalisini həmin vilayətlərdə nə qədər mümkünsə çoxaltmaq nəzərdə tutulur". İrəvana göndərdiyi başqa bir direktivdə Paskeviç məsləhət görürdü: "Erməniləri yerləşdirmək üçün bir sıra müsəlman kəndlərini onların dindaşları daha çox məskunlaşmış yerlərə köçürmək olarmı?" Lazarev isə İran ermənilərinə erməni dilində müraciət edərək bildirirdi ki, imperator köçmək istəyənlərə Rusiya dövlətində - İrəvanda, Naxçıvanda və Qarabağda etibarlı, sakit və xoşbəxt sığınacaq verir.

Həmin illərdə on minlərlə erməni İrandan və Türkiyədən İrəvana və Qarabağa köçürülmüşdü. Rus-İran müharibəsi başa çatdıqdan sonra 1828-ci il martın 21-də rus çarı I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqları ləğv edildi, onların əvəzinə "erməni vilayəti" adlanan inzibati-ərazi vahidi yaradıldı.

XIX əsrin 90-cı illərində ermənilərin Türkiyədən kütləvi surətdə Qafqaza köçürülməsi ilə əlaqədar öz təcavüzkar siyasəti ilə məşhur olan erməni millətçi "Daşnaksütyun" partiyasının mərkəzi də Qafqaza köçdü və o, erməniləri Qafqaz xalqlarına qarşı təcavüzə təhrik etməyə başladı.

XX əsrin əvvəllərindən başlayaraq daşnaklar Gəncədə, İrəvanda, Qarabağda, Naxçıvanda və Bakıda azərbaycanlılara qarşı kütləvi qırğınlar törətmişlər. 1905-ci ilin fevral ayında ermənilər tərəfindən Bakıda, Naxçıvanda, İrəvanda yüzlərlə azərbaycanlı qətlə yetirildi. 1918-ci ilin mart ayında Bakıda, Qubada, Lənkəranda Şaumyanın rəhbərliyi altında ermənilər 10 min azərbaycanlını qətlə yetirdilər.

Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra yaradılan Azərbaycan ordusu köməyə gələn Türkiyə qoşunlarının köməyi ilə erməni silahlı birləşmələrinə qarşı bir sıra uğurlu əməliyyatlar apararaq azərbaycanlıların kütləvi qırğınının qarşısını ala bildilər. Lakin türk qoşunları Azərbaycanı tərk etdikdən və Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ildə süqut etdikdən sonra Ermənistan rus bolşeviklərinin dəstəyi ilə 1921-ci ildə Azərbaycanın Zəngəzur bölgəsini ələ keçirə bildi.

### *XX əsrin axırlarında erməni separatçılığı. Ermənistan-Azərbaycan münaqişəsinin yaranma tarixi*

Sovet hakimiyyəti illərində öz məkrli niyyətlərini gizlədən ermənilər ermənipərəst Mixail Qorbaçovun (1985-1991-ci illərdə SSRİ rəhbəri olmuşdur) SSRİ rəhbərliyinə gəlişindən sonra fəal hərəkətlərə keçdilər. 1985-ci ilin dekabrında ABŞ-dakı erməni inqilabı federasiyası (daşnak partiyası) və erməni milli komitəsi Birləşmiş Ermənistan yaratmağı özlərinin strateji vəzifəsi elan etdi. "Birləşmiş Ermənistan" Naxçıvanı, Qarabağı və Gürcüstanın tərkibində olan Axalkalakini də özündə birləşdirməli idi.

Mixail Qorbaçovun milli siyasət sahəsində buraxdığı kobud səhvlərə qarşı öz etirazını bildirməklə ermənilərin planlarının həyata keçməsinə mane olan görkəmli dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyev 1987-ci ilin oktyabrında SSRİ rəhbərliyindən uzaqlaşdırıldıqdan dərhal sonra, 1987-ci ilin noyabrında Dağlıq Qarabağ erməniləri öz separatçı tələblərini irəli sürdülər və bununla da bu gün də öz həllini tapmamış Qarabağ problemi yarandı.

1988-ci il fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin (DQMV XDS) yalnız erməni deputatlarının iştirakı ilə keçirilən növbədənkənar sessiyası vilayətin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın inzibati-ərazi bölgüsünə daxil edilməsi haqqında qərar qəbul etdi. Azərbaycan SSR Ali Soveti DQMV XDS-nin konstitusiyaya zidd qərarını rədd etdikdən sonra Ermənistanın millətçi rəhbərləri "Daşnaksütyun" partiyasının "Türksüz Ermənistan" proqramını həyata keçirməyə başladılar.

1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Sovetinin sessiyası DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul edərək SSRİ Ali Sovetinə müraciət etdi ki, buna razılıq versin. 1988-ci il iyulun 18-də SSRİ Ali Soveti Rəyasət Heyətinin iclası DQMV haqqında məsələni müzakirə edərək respublikalar arasında sərhədlərin dəyişdirilməsini yolverilməz hesab etdikdən sonra erməni millətçiləri türklərin Ermənistandan çıxarılması üçün hər yerdə mitinqlər təşkil etməyə başladılar.

1988-ci ilin iyununda erməni dəstələri azərbaycanlılar yaşayan Masis rayonunun mərkəzinə və Zəngilər, Zəhmət, Dəmirçi, Dostluq, Nizami, Sarvanlar kəndlərinə basqınlar etdilər. Müdafiəsiz qalmış on minlərlə azərbaycanlı SSRİ-Türkiyə sərhədində toplaşaraq, orada gecələməyə məcbur olmuşdu. Masis qəsəbəsində 3 mindən çox azərbaycanlı evlərindən çıxarılmışdı.

1988-ci ilin noyabrın ortalarına qədər Azərbaycana 80 mindən çox qaçqın pənah gətirmişdi. Noyabrın 17-də Bakının Azadlıq meydanında keçirilən mitinq zamanı Ermənistanda yaşayan azərbaycanlılara muxtariyyət verilməsi tələbi ilə qətnamə qəbul edildi. Bu tələbdən narahat olan Ermənistan rəhbərliyi noyabrın 22-də rayon rəhbərlərinə yerlərdə qayda-qanunu bərpa etmək (əslində isə bir həftə ərzində, yəni noyabrın 28-dək Ermənistanı türklərdən təmizləmək) tapşırığını verdi.

1988-ci ilin noyabr-dekabr aylarında Ermənistanın azərbaycanlılar yaşayan kəndlərə ərzaq göndərilməməsi, elektrik xətlərinin kəsilməsi, kəndlərə silahlı basqınlar əhalini öz tarixi vətənindən qaçqın düşməyə məcbur etdi. 1988-ci ilin noyabr-dekabr aylarında Azərbaycana 200 mindən çox soydaşımız pənah gətirdi.

Moskvanın ermənilərə havadarlığı nəticəsində 1988-89-cu illərdə indiki Ermənistan ərazisində azərbaycanlıların yaşadıqları 170 təmiz və 94 qarışıq yaşayış məntəqəsi boşaldıldı. Ermənistanın Mehri rayonunda qalmış axırıncı azərbaycanlı kəndi Nüvədi (bu kənd 18 fevral 1929-cu ildə Zəngilan rayonundan qopardılıb Ermənistanın inzibati-ərazi bölgüsünə daxil edilmişdi) 1991-ci il avqustun 8-də boşaldıldı. Ümumiyyətlə, Ermənistanın 22 kənd və rayonundan, 6 şəhərindən 200 mindən artıq azərbaycanlı tarixi-etnik torpaqlarından qovuldu.

Ermənistanda azərbaycanlıların yaşadıqları ərazi Ermənistan ərazisinin (29,8 min kv.km) 25%-ni, yaxud təqribən 7,5 min kv.km-ni təşkil edirdi. Bu isə keçmiş DQMV-nin ərazisindən (4,4 min kv.km) 3,1 min kv.km artıqdır.

Ermənistan rəhbərliyi azərbaycanlıların deportasiyasını başa çatdırdıqdan sonra onların yaşadıqları kəndlərin adlarını dəyişdirməyə başladı. Ermənistan Respublikası Ali Sovetinin 9 aprel 1991-ci il tarixli qərarı ilə 90 türk mənşəli yaşayış məntəqəsinin adı dəyişdirildi. Ümumiyyətlə, 1920-ci ildən 1988-ci ilin avqustuna qədər Ermənistanda 517 azərbaycanlı yaşayış məntəqəsinin adı dəyişdirilib.

Son 200 ildə indiki Ermənistan ərazisində iki mindən artıq azəri-türk yaşayış məntəqəsi müxtəlif yollarla (rəsmi köçürmələrlə, silah gücünə qovmaqla, soyqırım törətməklə, kəndləri yandırıb xaraba qoymaqla) siyahıdan silinmiş, tarixi Azərbaycan torpaqlarında monoetnik Ermənistan dövləti yaradılmışdır.

1991-1993-cü illərdə Azərbaycanda yaranmış mürəkkəb ictimai-siyasi vəziyyətdən istifadə edən Ermənistanın Silahlı Qüvvələri Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətrafda olan 7 rayonu - Laçını, Kəlbəcəri, Ağdamı, Füzulini, Cəbrayılı, Qubadlını və Zəngilanı işğal etməyə müvəffəq oldu. Hazırda Azərbaycanın ərazisinin 20 faizi düşmən işğalı altındadır. Həmin torpaqların düşməndən azad edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında məqsədyönlü siyasət aparılır. Bu fəaliyyətin tərkib hissəsi ordu quruculuğudur. Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı olan cənab İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi ilk çıxışında ordu quruculuğunu daim diqqət mərkəzində saxlayacağını bildirmişdir. Cənab Ali Baş Komandan demişdir: **"Biz çalışacağıq və əminəm nail olacağıq ki, bu ordu daha da güclənsin və qarşıda duran bütün məsələləri həll edə bilsin"**.

Bu isə hər bir hərbi qulluqçudan öz vəzifə borcunu vicdanla yerinə yetirməyi, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməyi, mənəvi-psixoloji və fiziki hazırlıqlı olmağı, hərbi intizamı möhkəmləndirməyi tələb edir.

**Müdafiə Nazirliyinin**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

AZƏRBAYCAN ORDUSU

*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# Gəncədə "Xalq və Ordu birdir" bədii-təşviqat marafonunun açılışı olub

*Azərbaycan xalqının tarix boyu nümayiş etdirdiyi qəhrəmanlıq, cəsurluq ənənələri bu gün, müstəqil Azərbaycan dövlətində yenidən yüksəlmişdir və daha da canlanacaqdır.*

Heydər ƏLİYEV

***Azərbaycan Respublikası Müdafiə Nazirliyinin və Gəncə şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının qərarına əsasən, "Xalq və Ordu birdir" devizi altında keçirilən ümumrespublika bədii təşviqat marafonunun Gəncə şəhərində açılış mərasimi keçirilib.***






Mərasim iştirakçıları ulu öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsi önünə əklil qoyaraq, onun xatirəsini yad ediblər. Sonra Böyük Vətən Müharibəsi qəhrəmanlarının xatirəsinə ucaldılmış abidə ziyarət olunub. Silahlı Qüvvələrimizin hərbi hissə və birləşmələrinin əsgərləri meydana düzülmüşdülər. Böyük Vətən Müharibəsi illərini yada salan döyüş bayraqları diqqəti daha çox cəlb edirdi. İncəsənət ustaları tərəfindən müharibə illərinə həsr olunmuş kompozisiya nümayiş etdirildi.




İctimaiyyətin nümayəndələri, Böyük Vətən Müharibəsi veteranları, zabitlər əbədi məşəlin önünə çələng qoydular və müharibədə həlak olanların xatirələrinə hörmət və ehtiramlarını bildirdilər.

Mərasim ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan park-kompleksin qarşısında davam etdirildi.

Zəfər Tağı qarşısında böyük qələbəlik var. Hər tərəf bayraqlarla bəzədilib. Əsgərlər və sənət adamları buraya toplaşıblar.

Mərasimi Müdafiə Nazirliyinin zabiti, əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbani açıq elan etdi. Xalq musiqisinin sədaları dalğa-dalğa ətrafa yayıldı.

Tədbirin ssenarı müəllifi və rejissoru Abdulla Qurbani, İncəsənət Universitetinin dosenti Məleykə Məmmədova qədim Gəncənin keçmişi və bu günü haqqında məlumat verdilər. Gəncənin dünya mədəniyyətinə Nizami kimi böyük şair, mütəfəkkir bəxş etdiyini, bu şəhərin qədim tarixə, əvəzsiz mədəniyyət incilərinə malik olduğunu bildirdilər. Xalqımızın böyük oğlu, ümummilli lider Heydər Əliyevin Gəncə şəhərinə xüsusi diqqət və qayğı göstərdiyini və hazırda bu işlərin onun layiqli davamçısı, Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən davam etdirildiyini qeyd etdilər. Son illər şəhərin sürətli inkişafı da bu fikri bir daha təsdiqləyir.

İlk söz Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə verildi. İcra başçısı son illər ölkəmizdə həyata keçirilən quruculuq işlərinin təməlinin ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu və bu işin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd etdi. Bildirdi ki, memarı və qurucusu dahi şəxsiyyət Heydər Əliyev olan Silahlı Qüvvələrimiz son illər qüdrətli inkişaf yolu keçmiş, regionumuzun ən güclü, qüdrətli ordusuna çevrilmişdir. Bu gün xalqımız öz ordusuna güvənir. İnanırıq ki, Ali Baş Komandanın rəhbərliyi altında torpaqlarımızı tezliklə azad edəcəyik.

Natiq ulu öndər tərəfindən Böyük Vətən Müharibəsi iştirakçılarına həmişə böyük diqqət və qayğı göstərildiyini də xatırlatdı və hazırda bu işin ölkə rəhbərliyi tərəfindən diqqətdə saxlandığını bildirdi.



Azərbaycanın Milli Qəhrəmanı general-leytenant Rövşən Əkbərov mərasim iştirakçılarını Qələbənin 70 illiyi münasibəti ilə təbrik edərək dedi:

- Böyük Vətən müharibəsində xalqımızın igid oğulları misilsiz fədakarlıqlar göstərmişlər. Qələbənin əldə edilməsində xalqımızın hünəri əvəzsiz olmuşdur. Biz qəhrəman ata-babalarımızın layiqli davamçıları kimi üzərimizə düşən məsuliyyətli vəzifəni yerinə yetirməliyik. Ölkəmizin ərazi bütövlüyünü təmin etmək üçün döyüş təcrübəmizi, mənəvi-psixoloji hazırlığımızı daha da artırmalıyıq. Ölkə rəhbərliyi tərəfindən ordu quruculuğuna göstərilən diqqət və qayğı şəxsi heyətimizin hər bir üzvünü qələbəyə ruhlandırır. Bu gün Silahlı Qüvvələrimiz ən müasir silahlara, texnikaya malikdir. Bizə göstərilən etimadı doğrultmaq üçün qətiyyətlə çalışacaq, ərazi bütövlüyümüzün təmin olunması üçün Ali Baş Komandanın əmrini yerinə yetirəcəyik.




Sonra ali rütbəli zabit Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun mərasim iştirakçılarına təbriklərini çatdırdı.

General-leytenant R.Əkbərov düşmən təxribatının qarşısının alınmasında fərqləndiyinə görə "N" hərbi hissəsinin əsgərinə medal təqdim etdi.

Azərbaycan Respublikası Veteranlar Təşkilatının sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayev də xalqımızın övladlarının ikinci cahan savaşında zəngin döyüş yolu keçdiyini, qələbənin qazanılmasında Bakı neftinin əvəzsiz rolunu xüsusi vurğuladı. O, Gəncə şəhərində veteranlara göstərilən diqqət və qayğıya görə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə minnətdarlığını bildirdi və təşkilatın adından ona "Qayğıkeş" diplomunu təqdim etdi.

Ədəbiyyat tariximizdə önəmli yer tutan Nizami Gəncəvinin, məşhur hərb xadimi general-leytenant Əlağa Şıxlinskinin, Gəncə xanı Cavad xanın, ordu komandanı Nuru Paşanın, ilk Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun obrazlarını, xalq artisti Alim Məmmədov, əməkdar artist Ramiz Vəliyev, aktyor Kamil Məmmədov və polkovnik-leytenant Zöhrab İmamquliyev canlandırdılar. Aktyorlar dahilərin, sərkərdələrin, qəhrəmanların adından əsgər və zabitlərimizi Vətənin keşiyində ayıq-sayıq dayanmağa, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi üçün mübarizəyə səslədilər. Aktyorların çıxışlarını mərasim iştirakçıları alqışlarla qarşıladılar.

Müstəqilliyimizin rəmzi olan üçrəngli bayrağımızın meydana gətirilməsi də böyük canlanma yaratdı.

Ümumrespublika bədii-təşviqat marafonunun məşəlinin yandırılması üçün zabit Ramil Səfərov meydana daxil oldu.

Böyük Vətən müharibəsinin başlandığını bildirən diktorun çıxışı səsləndirildi. Xalq artisti Pərvanə Qurbanovanın, aktyor Kəmalə Məmmədovanın yaratdıqları ana-bacı obrazları rəğbətlə qarşılandı.

Azərbaycan Respublikasının xalq artistləri Gülyaz və Gülyanaq Məmmədovaların, Şahnaz Haşımovanın, Zaur Rzayevin, Zümrüd Məmmədovanın və başqalarının Vətəni, torpağı tərənnüm edən mahnıları könülləri riqqətə gətirdi...

**Mübariz MUSAOĞLU,**
**"Azərbaycan Ordusu"**

# Matroslar arasında bilik yarışı

***Hərbi Dəniz Qüvvələrindən redaksiyamıza verilən məlumata görə, Müdafiə nazirinin qərarına əsasən, şəxsi heyətin döyüş və mənəvi-psixoloji ruhunun yüksəldilməsi istiqamətində bu qoşun növündə də məqsədyönlü tədbirlər həyata keçirilir.***



Ayrı-ayrı hərbi bölmələrdə xidmət edən gənc hərbi dənizçilərin həm asudə vaxtının səmərəli keçirilməsi, həm də bölmələrdə hərbi intizamın və sağlam rəqabətin möhkəmləndirilməsi məqsədilə döyüş ixtisasları üzrə yarışmalar təşkil edilir. Bundan əlavə şəxsi heyət arasında vətənpərvərlik mövzusunda inşa müsabiqəsinin keçirilməsi də nəzərdə tutulub.

28 fevral 2015-ci il tarixində başlanmış "Anamı təbrik edirəm" adlı müsabiqəyə bu günlərdə yekun vurulub. Birinci dərəcəli kapitan Natiq Bağırov əməkdaşımıza bildirib ki, Beynəlxalq Qadınlar Gününə həsr olunmuş yazı müsabiqəsində matroslar fəal iştirak ediblər. "Müsabiqənin keçirilməsində əsas məqsəd hərbi xidmətdə olan gənclərimizin mənəvi-psixoloji keyfiyyətlərini, vətənpərvərlik hisslərini üzə çıxarmaq idi. Şübhəsiz, gənclərdə ailəyə, valideynə olan əsl övlad sevgisi nəticə etibarilə onların nə dərəcədə vətənpərvər olmalarını sübut edən əsas amildir", - deyə şəxsi heyət üzrə cavabdeh olan zabit bildirib.

Münsiflər heyəti tərəfindən 64 yazı qiymətləndirilib. 4-ü isə mükafata layiq görülüb. Matroslardan Hüseyn Mustafayev 1-ci, Ələddin Mehralızadə 2-ci, Aqil Nəcəfov və Amin Musayev isə 3-cü yerə layiq görülüblər.

Müsabiqəyə yekun vurulduqdan sonra mükafatlandırma mərasimi keçirilib. Hərbi Dəniz Qüvvələrinin komandanı vəzifəsini icra edən birinci dərəcəli kapitan Şahin Məmmədovun və qərargah zabitlərinin iştirakı ilə keçirilən tədbirdə qaliblərə diplomlar təqdim edilib.

Sonda birinci dərəcəli kapitan Ş.Məmmədov çıxış edərək həm qalibləri təbrik edib, həm də müsabiqənin təşkilində zəhməti olan şəxslərə öz minnətdarlığını bildirib.

**"Azərbaycan Ordusu"**

# Novruz bayramı ərəfəsində müsabiqə

***Yurdumuza bahar gəlir, torpaq və təbiət oyanır, hər tərəf yaşıllığa, gül-çiçəyə bürünür. İslam qaydalarına görə, baharın gəlişi Novruz bayramı ilə rəsmiləşir. Hər il ölkəmizdə bu bayram özünəxas təntənə ilə qeyd edilir.***

Həm də xeyirxahlıq rəmzi olan Novruzun gəlişi əsgər və zabitlərimizə xoş ovqat, nikbin əhval-ruhiyyə aşılayır. Bu bayram günlərində düşmənlə üz-üzə mövqelərdə xidmət edən əsgərlərin ziyarət edilməsi, döyüşçülər qarşısında bayram tədbirlərinin keçirilməsi artıq Silahlı Qüvvələrimizdə dəyərli bir ənənəyə çevrilib.



Bu günlərdə Naxçıvan Zabitlər Evində Əlahiddə Ümumqoşun Ordusunun tabeliyindəki hərbi bölmələrin şəxsi heyəti arasında "Bədii özfəaliyyət kollektivlərinin yaradıcılığına baxış" müsabiqəsinin ilk mərhələsi keçirilib. Redaksiyamıza verilən məlumata görə, müsabiqənin təşkil edilməsində əsas məqsəd hərbi qulluqçuların yaradıcılıq imkanlarını inkişaf etdirmək və əsgərlərə vətənpərvərlik mahnılarını daha geniş təbliğ etməkdir.

Qeyd etmək lazımdır ki, Əlahiddə Ümumqoşun Ordusunun mənəvi-psixoloji təminat şöbəsi tərəfindən hərbi hissə və bölmələrdə həm şəxsi heyətin hərbi vətənpərvərlik tərbiyəsini gücləndirmək, həm də döyüşçülərin asudə vaxtlarını mənalı təşkil etmək üçün belə tədbirlər ardıcıl keçirilir.

**"Azərbaycan Ordusu"**

---

Mayor İsayev Cəlal Əli oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Kapitan Şamilov Eldəniz Rüfət oğluna 2007-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Kursant Əli Şirzadoğluna 2011-ci ildə verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

---

Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu Yusifzadə Müzəffər Gündüz oğluna 2009-cu ildə verilmiş sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid FAXRALI

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 308
Nüsxə 4600